# Karvansaranın türk abidələri

**Qərbi Azərbaycanın əksər rayonlarında olduğu kimi, indiki İcevan (Karvansara) rayonunda da əsrlərdən bəri mövcud olan, vaxtilə dağıdılmış, viran qoyulmuş, lakin adları yaddaşımıza əbədi yazılmış yaşayış yerlərinin Azərbaycan türklərinə məxsus olduğunu nə tarix unudub, nə də bunu tarixdən silməyə çalışan üzdəniraq haylar.**

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Karvansara rayonundakı türk mənşəli yer adları erməni vandalları tərəfindən get-gedə dəyişdirilmiş, bu işdə keşişlər tərəfindən xəyanət toru hazırlanmışdır. Lakin bizə gəlib çatan adlar onu sübut edir ki, bu yerlərdə daim türklər yaşamışlar, onların yaratdığı qədim abidələri nə qədər dağıdıb viran ediblərsə də, yenə də onların qalıqlarında saxlanmış yazılar, bizim mədəniyyətimizə xas olan rəmzlər - aypara, qübbə, səkkizguşəli ulduz bunlara əyani sübutdur.

Qədim tarixi abidələr sırasına rayonun dərin dərələrin sıldırım yamaclarındakı mağaraları da daxil etmək olar. Məlumdur ki, hələ Ərşəqilər dövrünün, əsasən 4-5-ci əsrlərdə ticarət yollarından biri Karvansara rayonundan keçib. Ərəb hökmranlığı dövründə Karvansara (İcevan) Gəncə əmirliyinin tərkibində olub. Bu dövrə aid tarixi abidələr, bir sıra qalalar - Məntaş, Qara Qala, Qız Qalası, Budur tarixi yaşadıb.

Karvansara Ağstafa çayının sahilində yerləşir və Kiçik Qafqazın təkrarsız mənzərələrini əks etdirir. Bura Qərbi Azərbaycanın bir parçası olub. Dilican dərəsi bu qədim Oğuz yurduna yaraşıq verirdi. Dahi şairimiz Səməd Vurğun Karvansaranın atlas geyimli dağlarını qarış-qarış gəzərmiş. Məhz buna görədir ki, rayonun kəndlərindən birinə Vurğun adı verilmişdi.

Məntaş və Qara Qala Karvansaradan 12 km cənub-şərqə doğru, Ağstafa çayının sağ sahilində ucalan dağın zirvəsində Ərəb hakimiyyəti dövründə tikilmişdir. Qapıları bütöv və iri daşlardan ibarət olub. Bölgənin böyük və alınmaz qalalarından idi. İndi bu qala erməni xəyanəti nəticəsində dağılmış vəziyyətdədir. Yalnız divarlarının xırda hissələri qalmışdır. İçəridə bir sıra yaşayış evlərinin izləri də hiss olunur.

Qetaşen kəndinin 12 kilometrliyində yerləşən Kirants alban kilsəsi barədə belə bir məlumat var ki, bura Qərbi Azərbaycanın qədim abidələrindən biridir. Kilsənin üstü səkkizguşəli günbəz, içərisi isə cürbəcür rəngli və fiqurlu, o cümlədən beşguşəli ulduz, aypara və sairə üzlük daşlarla örtülmüşdür.

Budur qalası bir neçə hektar sahəni əhatə edir, ikiqat hörgülü divarlarla möhkəmlənmişdir.

Aşağı və ya Kiçik Laçın Qaya dağılmış qədim türk yaşayış yeridir. Yuxarı Ağdan kəndindən təxminən 3 km şimal-şərqə doğru Sığnaqsuyu qolunun sağ sahilindəki düzənlikdəki meşədə yerləşir.

Qamış göl dağılmış kənd yeridir. Xaçtərək kəndindən 2 km şərq istiqamətdə yerləşir. Kəndin qəbirstanı və kiçik kilsəsi də olub.

Haqqıxlı Karvansara rayonunun qədim türk kəndlərindən biri olub. Adını "haqqıx" (əqiq) muncuğu" daşlarından alan bu kənd axar-baxarlı təbiəti, zəngin fauna-florası ilə bura gələn qonaqlara xoş ovqat aşılayır, buradakı dağ gölləri, çaylar, bulaqlar adamı heyran edirdi. Ancaq bu gün İrəvan mahalının başqa kəndləri kimi, bu kəndin də öz ağrı-acısı var, 1988-ci ilin dekabr ayından Haqqıxlıda sahibsiz kənd yerləri qalıb, buradakı azəri türkləri erməni daşnakları tərəfindən deportasiyaya məruz qalıb.











Bu bölgədə oğuzların çox qədimdən yaşaması bəllidir. Hörükdaş abidəsi də bunu açıq göstərir.

Haqqıxlının quzey-batı yolunda kiçik gölün yaxınlığında son qazıntıda aşkar edilmiş qəbirdən VI-VII əsrlərə aid metal qolbağılar və keramik qablar tapılmışdır.

Ümumiyyətlə, Karvansara rayonunun Haqqıxlı kəndi qədim yaşayış məskəni olmuşdur. Burada albanlardan əvvəl və albanların dövründə məskunlaşmanın olduğunu sübut edən kifayət qədər tutarlı faktlar mövcuddur. Haqqıxlıda qədim abidələr və qazıntılar zamanı aşkara çıxan qəbirlər bu fikri söyləməyə əsas verir.

Haqqıxlı ərazisində, daha doğrusu, yaxın ətraflarda qədim qalalardan və səngər tikililərdən əlavə yaşayış məskənlərinin - kənd xarabalıqlarının olması söyləməyə əsas verir ki, Qərbi azərbaycanlıların yaşadıqları bu ərazidə daim türk oğulları qılınc oynadıb, at çapıblar. Gözəl təbiəti, zəngin sərvətləri və əlverişli iqlim şəraiti olan bu ərazi məskunlaşmadan kənarda qala bilməzdi.

Karvansara rayonundakı qədim yer-yurd adlarımız uzaq keçmişimizin izlərini yaşadır. Azərbaycan türkləri qədimdən bu ərazidə yaşamışlar. Bu ərazi Azərbaycan türklərinin tarixi Vətəni olduğu üçün toponimlərin 90 faizdən çoxu da yalnız türk mənşəlidir. Ərazinin toponimləri tarixi həqiqətlərə şahidlik edir, ermənilərin gəlmə olduğunu göstərir. Əgər ermənilər buranın köklü sakinləri olsaydı burada erməni dilinə məxsus toponimlər də olardı. 1935-ci ildən sonra indi Ermənistan adlanan Qərbi Azərbaycanda türk mənşəli toponimlərin kütləvi surətdə dəyişdirilməsindən sonra erməniləşdirilib. İndiki Ermənistan ərazisində türk mənşəli toponimlər mənəvi soyqırımına məruz qalmışdır.

Ermənilər Qərbi Azərbaycanın Karvansara rayonunda türklərə məxsus olan əraziləri, insan məskənlərini saxta və qondarma materiallara istinadla öz adlarına çıxmışlar. Karvansara ərazisində türklərə məxsus yüzlərlə toponim mövcuddur ki, bunlar da həmin kəndin qədimliyini, türk torpağı olduğunu sübuta yetirir.

Dahi Azərbaycan şairi Səməd Vurğun deyib:

*Kim bilir neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır.*
*Hər saxsı parçası, hər məzar daşı,*
*Nəsildən-nəslə bir yadigardır.*

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 30 yanvar (№20).- S.4.